# GÜRCÜSTAN

SAYI 25-26 (13.395)
CÜMƏ 4 APREL 2025-ci il

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## BAŞ NAZİR MÜSƏLMAN İCMASININ ŞƏRƏFİNƏ İFTAR VERİB



***"Biz fəxr edirik ki, Gürcüstan müxtəlif, çoxmillətli və çoxdinli bir ölkədir. Gürcüstan hökuməti müsəlman icmasını maksimum dərəcədə dəstəkləyir və bu dəstək gələcəkdə də davam edəcək".***

Bunu Gürcüstanın Baş naziri İrakli Kobaxidze, müsəlman icmasının şərəfinə təşkil olunan iftar süfrəsində çıxışı zamanı deyib.

Hökumət başçısı ölkənin inkişafında müsəlman icmasının töhfəsindən danışıb.

*"Biz fəxr edirik ki, həqiqətən nümunəvi birgəyaşayışımız var və birlikdə ümumi vətənimizin gələcəyini qururuq. Gürcüstan hökuməti müsəlman icmasını, xüsusilə 2014-cü ildən sonra, maksimum dərəcədə dəstəkləyir və bu dəstək gələcəkdə də davam edəcək. Son 10 il ərzində müsəlman icmasına daimi istifadəyə 250-dən çox məscid verilib, həmçinin hökumət tərəfindən 35 milyon lari maliyyə yardımı ayrılıb. Şübhəsiz ki, bütün bunlar Gürcüstan hökumətinin müsəlman icmasının Gürcüstanın inkişafına verdiyi töhfəyə böyük əhəmiyyət verdiyini nümayiş etdirir"*, - deyə İrakli Kobaxidze vurğulayıb.

Tbilisidə təşkil olunan iftar süfrəsi tədbirində Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze, Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Faiq Nəbiyev, Qərbi Gürcüstan müftisi Adam Şantadze və Şərqi Gürcüstan müftisi Etibar Eminov çıxış ediblər.

Gürcüstanın Baş naziri adından müsəlman icmasının şərəfinə təşkil olunan iftar süfrəsində Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət naziri Tea Axvlediani, Acara Muxtar Respublikasının hökumət başçısı Tornike Rijvadze, parlament üzvləri, dövlət nümayəndələri və diplomatik korpusun təmsilçiləri iştirak ediblər.

## ABİTURİYENTLƏRİN NƏZƏRİNƏ! MİLLİ İMTAHANLAR HANSI DİLLƏRDƏ VERİLƏ BİLƏR ?

***Abituriyent Vahid Milli İmtahanları gürcü dilindən savayı başqa dildə verə bilərmi? Milli Qiymətləndirmə və İmtahan Mərkəzi bu sualla bağlı abituriyentlərə aydınlıq gətirir.***

Mərkəzdən verilən məlumata görə, abituriyentlər erməni və azərbaycan dillərində ümumi bacarıq imtahanını verə bilərlər;

İşğal olunmuş ərazidə ümumi təhsil almış abituriyent rus dilindən tarix, coğrafiya, fizika, biologiya, təsviri və tətbiqi incəsənət, vətəndaşlıq, riyaziyyat, kimya fənlərindən imtahan vermək hüququna malikdir. Bu halda abituriyent 2025-ci il mayın 1-dək Milli Qiymətləndirmə və İmtahan Mərkəzinə müraciət etməlidir;

İmtahan osetin və abxaz dillərində aparılır (gürcü dili hazırlığı proqramı üçün).



## FİNLANDİYA PREZİDENTİ TRAMPA APRELİN 20-NİN UKRAYNADA ATƏŞKƏS TARİXİ OLMASINI TƏKLİF EDİB



***Finlandiya Prezidenti Aleksandr Stubb bildirib ki, o, ABŞ prezidenti Donald Trampa Ukraynada atəşkəs üçün mümkün tarix kimi aprelin 20-ni təyin etməyi təklif edib.*** Bu barədə "Reuters" məlumat yayıb. Onun sözlərinə görə, aprelin 20-si heç bir şərt olmadan tam atəşkəs üçün yaxşı vaxt olardı. Finlandiya lideri qeyd edib ki, o, bu tarixi Pasxa bayramının bu gündə qeyd olunacağı və o vaxta qədər Tramp üç ay ABŞ prezidenti vəzifəsini icra etmiş olacağı üçün təklif edib. Qeyd edək ki, Stubb Floridada Trampla görüşüb və liderlər qolf oynayarkən ikitərəfli münasibətləri müzakirə ediblər.

## 9 APREL FACİƏSİNDƏN 36 İL ÖTÜR

***1989-cu il aprelin 9-da on minlərlə insan ölkəmizin paytaxtı Tbilisidəki Rustaveli prospektinə toplaşaraq müstəqillik tələb edib.***

Dinc nümayiş sovet cəza dəstələri tərəfindən dağıdılıb. Səhər saat 4-də Kremlin göstərişi ilə sovet ordusunun ağır texnikası, daha sonra isə Daxili Qoşunların xüsusi təyinatlıları azadlıq tələbi ilə toplaşanlara hücuma keçiblər.

Kremlin göstərişi ilə Sovet əsgərləri həmin gecə televiziyanın yaxınlığında dinc nümayişçilərin yolunu kəsib, kürək və gözyaşardıcı qazla vətəndaşların, milli hərəkatın bəzi liderlərinin toplaşdığı mitinqi amansızca dağıdıblar.



9 aprel nümayişinin dağıdılması nəticəsində 21 nəfər həlak olub. Onlardan 17-si qadın, 4-ü isə kişi idi. Ölənlər arasında azyaşlılar da olub.

Aprelin 9-da baş verən amansızlıq nəticəsində 4000-dən çox nümayişçi müxtəlif xəsarətlərlə xəstəxanaya yerləşdirilib. 2000-ə yaxın vətəndaş naməlum kimyəvi maddədən zəhərlənib.

Aprelin 9-nun ikinci ildönümündə, 1991-ci ildə Zviad Qamsaxurdianın rəhbərlik etdiyi Gürcüstan Ali Soveti Gürcüstanın Müstəqillik Aktını qəbul edib.

9 aprel ölkəmizdə faciə və eyni zamanda, Gürcüstanın müstəqilliyinin bərpası günü kimi qeyd edilir.

PARLAMENT

## "YAYIM HAQQINDA" YENİ QANUN QƏBUL EDİLİB

***Parlament, plenar iclas formatında, "Yayım haqqında" qanuna planlaşdırılan dəyişiklikləri üçüncü oxunuşda müzakirə edib və dəstəkləyib.*** Bu dəyişikliklərin qüvvəyə minməsi ilə televiziya və radio yayımı ilə bağlı bir sıra yeni qaydalar, tələblər və standartlar tətbiq olunacaq.



Sözügedən qanun layihəsi 85 səslə qəbul edilib.

"Gürcü Arzusu" partiyası tərəfindən hazırlanan qanun layihəsi faktların düzgünlüyü, dəqiqliyi, cavabdehlik haqqı, ədalətlilik və qərəzsizlik, şəxsi həyatın toxunulmazlığı, yayımçılar tərəfindən gizli metodlarla məlumat əldə edilməsi və yayılması, silahlı münaqişə, bədbəxt hadisələr və digər fövqəladə halların işıqlandırılması, eləcə də yetkinlik yaşına çatmayanların qorunması ilə bağlı məsələləri tənzimləyir.

Parlamentin qəbul etdiyi dəyişikliklərə əsasən, özünütənzimləmə mexanizmləri ilə yanaşı, yayım standartlarının pozulmasına nəzarət etmək səlahiyyəti dövlət qurumuna –Milli Kommunikasiya Komissiyasına veriləcək. Qanunun ehtimal edilən pozuntusu ilə bağlı maraqlı tərəf birbaşa Kommunikasiya Komissiyasına şikayət edə biləcək. Əgər pozuntu təsdiqlənərsə, komissiya yayımçıya aşağıdakı sanksiyaları tətbiq edə biləcək: xəbərdarlıq, cərimə və bəzi hallarda, lisenziyanın dayandırılması və ya ləğvi.

Qanunla müəyyən edilmiş qaydalar və tənzimləmələr yayımçıların onlayn və sosial media səhifələrində dərc olunan məlumatlara da şamil ediləcək.

Bundan əlavə, "Yayım haqqında" qanuna keçid müddəası əlavə edilib. Bu müddəaya görə, yayımçının 2025-ci il iyunun 1-dək qanunda nəzərdə tutulan tələbləri pozması halında, tənzimləyici komissiyanın tətbiq edəcəyi sanksiyalar icra edilməyəcək.

## "XARİCİ TƏSİRİN ŞƏFFAFLIĞI HAQQINDA" QANUN LAYİHƏSİ TƏSDİQLƏNİB

***Parlament, üçüncü oxunuşda, "FARA" qanun layihəsini təsdiqləyib.***

"Gürcü Arzusu" fraksiyası tərəfindən irəli sürülən qanun layihəsi 86 səslə qəbul edilib.

Səsvermə zamanı Parlamentin sədri Şalva Papuaşvili bildirib ki, "Amerika standartının və dəqiq surətinin qanunu qəbul edildi".

Son nəticədə qəbul edilən qanun "Xarici Agentlərin Qeydiyyatı Aktı" adlandırılıb. Bununla yanaşı, Cinayət Məcəlləsində planlaşdırılan dəyişikliklər də təsdiqlənib.

Qanun layihəsi ilə subyektlərin xarici prinsipalın agenti kimi qeydiyyatdan keçməsi məsələləri tənzimlənir. Qanunun icrası Korrupsiyaya Qarşı Mübarizə Bürosuna həvalə ediləcək.

"Gürcü Arzusu"nun qanun layihəsi xarici prinsipalın agenti və xarici güc anlayışlarını izah edir. Layihə ilə aşağıdakı məsələlər tənzimlənir:

- - Xarici prinsipalın agenti kimi qeydiyyatdan keçmək üçün müraciətin və digər müvafiq sənədlərin ictimaiyyətə açıq olmasının təmin edilməsi;
- - Xarici prinsipalın agenti kimi qeydiyyatdan keçmiş subyektin illik maliyyə deklarasiyasını təqdim etməsi;
- - Xarici prinsipalın agenti kimi qeydiyyatın ləğv edilməsi;
- - Xarici prinsipalın agentlərini müəyyən etmək və qanun layihəsində göstərilən tələblərə əməl olunmasını yoxlamaq üçün monitorinqin həyata keçirilməsi.

Xarici prinsipalın agenti kimi qeydiyyatdan yayınmaq və qanunla müəyyən edilmiş tələbləri yerinə yetirməmək cinayət məsuliyyətinə səbəb olacaq.

Sənəd prezident tərəfindən imzalandıqdan və ölkənin qanunverici orqanının rəsmi saytında dərc edildikdən sonra qüvvəyə minəcək.

Xatırladaq ki, sənəd Gürcüstanda böyük ictimai etirazlara səbəb olub. Müxalifət və vətəndaş cəmiyyəti qanunun söz və media azadlığını məhdudlaşdıracağını söyləyir.

## MİXEİL KAVELAŞVİLİ TÜRKİYƏ, İSVEÇRƏ VƏ KUBAYA YENİ SƏFİRLƏR TƏYİN EDİB



***Baş nazir İrakli Kobaxidze Gürcüstanın İsveçrə, Türkiyə və Kuba ölkələrinə təyin olunacaq səfirlərin siyahısını Mixeil Kavelaşviliyə təqdim edib.*** Bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb. Belə ki, Türkiyədə səfir vəzifəsinə Arçil Kalandia, İsveçrədə Şota Qeçadze, Kubaya isə Qriqol Baramidze təyin olunacaq. Arçil Kalandiya 2018-ci ildən etibarən Gürcüstanın Çin Xalq Respublikası üzrə fövqəladə və səlahiyyətli səfiri olub. Şota Qeçadze isə Apellyasiya Məhkəməsinin hakimi olub və 2023-cü ildə vəzifəsindən istefa verib. Qeyd edək ki, Türkiyədə Gürcüstanın səfiri 2023-cü ilin 1 iyun tarixinə qədər Qiorqi Cancğava olub. Hazırda hökumət onu Birləşmiş Ərəb Əmirliklərinə səfir təyin edib. İsveçrədə isə 2023-cü ilin 1 oktyabr tarixinə qədər Gürcüstanın səfiri Revaz Lomindaşvili olub. Onun vəzifəsindən azad edilməsi ilə bağlı sərəncamı İrakli Kobaxidze 2024-cü ilin 26 avqustunda imzalayıb.

## Ş. PAPUAŞVİLİ: - "GÜRCÜSTANIN MÜSTƏQİLLİYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİ UĞRUNDA MÜBARİZƏ HEÇ VAXT BAŞA ÇATMAYACAQ"



***Gürcüstanın sovetləşməsindən düz 70 il sonra bütün ölkə açıq və qəti şəkildə dövlət müstəqilliyini, suverenliyini və öz taleyini özü təyin etmək arzusunu ifadə etdi.***

Bu barədə parlamentin sədri Şalva Papuaşvili 1991-ci il 31 mart tarixində keçirilmiş müstəqillik referendumu ilə bağlı sosial şəbəkədə paylaşımında qeyd edib.

O vurğulayıb ki, artıq 34 ildir ki, Gürcüstan bu yolla irəliləyir və çoxsaylı çətinliklərin öhdəsindən gəlməklə öz müstəqilliyini möhkəmləndirməyə çalışır:

*"Bu mübarizə hələ başa çatmayıb və heç vaxt da başa çatmayacaq,"* - deyə o qeyd edib.

Parlament sədri vurğulayıb ki, Gürcüstanın hər bir vətəndaşı dövlətinə sahib çıxmalı, onun müstəqilliyini və gücünü qorumağı öz vəzifəsi bilməlidir.

*"31 martda gürcü xalqı Sovet İttifaqına, onun təsirinə və diktəsinə yox dedi. Xalqımız nə yeni ağaya, nə də daha yaxşı köləliyə səs verdi – o, hamıdan müstəqil olmağa və öz kimliyini qorumağa üstünlük verdi,"* – Papuaşvili bildirib.

Spiker qeyd edib ki, Gürcüstan 70 il sovet imperiyasında yaşadığından və bu mentalitetdə iz qoyub:

*"Bunun nəticəsidir ki, bu gün yad bayraqları yelləyən bəzi insanlar hələ də özlərinə yeni ağalar, himayədarlar, hamilər axtarırlar. Onlar elə bilirlər ki, kimsə onları qoruyacaq, yedirəcək və isidəcək. Amma bizə yeni köləlik lazım deyil. Biz böyüməliyik və biz artıq böyümüşük".*

## ABŞ-NİN AVTOMOBİLLƏRƏ TƏTBİQ ETDİYİ RÜSUM GÜRCÜSTANA TƏSİR EDƏCƏKMİ?

***ABŞ-nin yeni avtomobillərə 25%-lik rüsum tətbiq etməsi, Gürcüstana idxal edilən avtomobillərin qiymətinə təsir edəcək.***

Bu barədə avtomobil idxalçısı Caba Qoqinaşvili məlumat verib.

*"Biz kiçik ölkəyik, amma bizdən çox şey asılıdır, çünki Mərkəzi Asiya ölkələri, Azərbaycan və Ermənistan istər - istəməz Gürcüstan şirkətlərindən asılıdır və ticarət Gürcüstan üzərindən həyata keçirilir. Burada tələbat o qədər yüksəkdir ki, hərraclarda qiymətlər süni şəkildə artır, çünki rəqabət böyükdür və eyni model üçün çox sayda insan alqı-satqı edir. Əgər hərraclarda qiymətlər süni şəkildə artırılmasa, təsir dərhal hiss olunmamalıdır. Düşünürəm ki, qiymət artımı 1-2 il ərzində başlayacaq, çünki Trampın qərarı yeni avtomobillərə aiddir, ikinci əl avtomobillərə yox. Amerikada avtomobil əvvəlcə yüksək qiymətə satılmalı, ABŞ vətəndaşı tərəfindən istifadə edilməli, sonra isə müəyyən səbəblərə görə hərraca çıxarılmalı və biz onu artıq bahalaşmış qiymətlə almalıyıq. Bu proses ən azı bir il çəkəcək, lakin qiymət artımı qaçılmazdır"* – deyə Caba Qoqinaşvili bildirib.

Məlumat üçün qeyd edək ki, ABŞ avtomobil ticarəti sahəsində Gürcüstanın bir nömrəli tərəfdaşıdır. Məsələn, 2025-ci ilin yanvar-fevral aylarında Gürcüstana ABŞ-dən 15 min 301 ədəd yüngül avtomobil idxal edilib və onların ümumi dəyəri 193 milyon ABŞ dollarını keçib.

Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp ölkəyə idxal olunan avtomobillər və onların ehtiyat hissələri üçün 25%-lik gömrük tariflərinin tətbiqini elan edib. Yeni tariflər 2 aprel tarixindən qüvvəyə minib. Trampın sözlərinə görə, bu rüsumlar birbaşa ABŞ-da istehsal olunan avtomobillərə şamil edilməyəcək.

## İ.KOBAXİDZE: "BU GÜN GÜRCÜSTAN HEÇ VAXT OLMADIĞI QƏDƏR MÜSTƏQİL VƏ SUVEREN ÖLKƏDİR"

***"Bu sözləri tam əminliklə demək olar ki, bu gün Gürcüstan heç vaxt olmadığı qədər müstəqil və suveren ölkədir".***

Bunu Gürcüstanın Baş nazir İrakli Kobaxidze hökumət iclasında deyib.

Onun sözlərinə görə, bu elə bir vəziyyətdir ki, ona xüsusi diqqətlə yanaşmaq lazımdır.

*"Gürcüstan bu günə qədər təkcə müstəqilliyini qoruyub saxlamaqla kifayətlənməyib, onu daha da möhkəmləndirə bilib. Müstəqillik elə bir dəyərdir ki, biz ona gələcəkdə də xüsusi qayğı göstərməliyik. Müstəqillik daimi diqqət və qayğı tələb edir. Tam əminliklə demək olar ki, Gürcüstan bu gün heç vaxt olmadığı qədər müstəqil və suverendir. Bu, qorunmalı olan bir vəziyyətdir.*

*Bu gün biz xüsusilə o insanları xatırlamalıyıq ki, illər boyu müstəqillik ideyasına ən qiymətli nemətlərini–həyatlarını qurban veriblər. Xüsusilə də Gürcüstanın müstəqilliyi uğrunda gedən müharibələrdə həlak olmuş əsgərlərimizə ehtiram göstərməliyik",*-deyə İrakli Kobaxidze vurğulayıb.

## GÜRCÜSTANIN İQTİSADİYYATI 7.7 FAİZ ARTIB

***2025-ci ilin fevral ayında real ÜDM artımı ötən ilin eyni dövrü ilə müqayisədə 7.7% təşkil edib. Yanvar-fevral ayları üzrə orta artım tempi isə 9.4% olub.***

Bu göstərici Gürcüstanın Milli Statistika Xidmətinin (Sakstat) ilkin qiymətləndirməsinə əsasən aydın olub.

Sakstat bildirir ki, fevral ayı üzrə iqtisadi artıma əsas töhfəni aşağıdakı sahələr verib:

- peşəkar, elmi və texniki fəaliyyətlər,
- informasiya və kommunikasiya,
- nəqliyyat və anbar təsərrüfatı,
- energetika,
- dağ-mədən sənayesi.

Bu hesablamalar sektoral statistika (ƏDV ödəyicisi müəssisələrin dövriyyəsi), fiskal və monetar məlumatlar əsasında aparılır. Belə qiymətləndirmə metodu beynəlxalq praktikaya uyğundur və qısamüddətli operativ məlumatların əldə olunmasına xidmət edir.

O sahələr üzrə ki, aylıq statistik məlumatlar mövcud deyil (məsələn, kənd təsərrüfatı və qeyri-rəsmi iqtisadiyyat), qiymətləndirmələr əvvəlki dövrlərin göstəricilərinə əsaslanır. Bundan əlavə, hər ay ƏDV ödəyicilərinin dövriyyə göstəricilərində düzəlişlər ola bilər ki, bu da əvvəlki aylara dair real artım qiymətləndirmələrinin yenilənməsinə səbəb olur.

## AZƏRBAYCANIN GÜRCÜSTANDAKI SƏFİRLİYİ VƏ "AZEBİ" YÜZLƏRLƏ AZTƏMİNATLI AİLƏYƏ YARDIM EDİB



***Azərbaycanın Gürcüstandakı Səfirliyi və Azərbaycanlı İş Adamları Birliyi (AZEBİ) Ramazan ayı münasibətilə Gürcüstanda yaşayan az-təminatlı ailələrə ərzaq yardımı göstərib.*** Səfirliyin müşaviri Samir Əbdürəhimov, AZEBİ-nin idarə heyətinin sədri Nəriman Qurbanov və digər rəsmi şəxslər martın 27-də yardımı Bütün Gürcüstan Müsəlmanları İdarəsinə (BGMİ) təhvil veriblər. Bildirilib ki, bu il yardımların ünvanlara çatdırılması GMİ-nin təşkilatçılığı ilə keçirilib. Qeyd edək ki, ümumilikdə 300-dən çox aztəminatlı ailəyə Ramazan sovqatı paylanılıb.

## Sitat guşəsi



"Kollektiv Vahid Milli Hərəkat"ın varisi sayılan partiyaların qeyri-konstitusion elan olunması ilə bağlı qanun layihəsi artıq hazırlanıb.".

**Mamuka Mdinaradze**
**"Gürcü Arzusu"**
**partiyasının icraçı katibi.**



"Əgər biz Ukraynada axan qanı dayandırmaq üçün Rusiya ilə razılığa gələ bilməsək və bunun Moskvanın günahı olduğunu düşünsəm, bu ölkədən gələn bütün neftlərə ikinci dərəcəli rüsumlar tətbiq edəcəm".

**Donald Tramp,**
**ABŞ-nin Prezidenti.**



"Ukraynada müvəqqəti idarəçiliyin tətbiqi demokratik seçkilərin keçirilməsini və elə bir hökumətin formalaşmasını mümkün edəcək ki, onunla sülh danışıqları aparmaq və müvafiq sənədləri imzalamaq mümkün olsun."

**Vladimir Putin,**
**Rusiyanın Prezidenti.**



"İstanbulda aparılan rüşvət, korrupsiya və terror araşdırmalarını yaxından izləyirik. İstintaq irəlilədikcə, dərinləşdikcə bələdiyyələri səkkizayaqlılar kimi əhatəyə alan cinayətkar təşkilatın əllərinin nə qədər uzandığı təbii ki, bəlli olacaq".

**Rəcəb Tayyib Ərdoğan,**
**Türkiyənin Prezidenti.**



"Ölkəmiz daha yaxşı gələcəyə doğru yolunda yeni tarixi dövrə qədəm qoyur. Biz yenidənqurma işləri ilə məşğul olacaq və islahatlar keçirəcək quruculuq və dəyişiklik hökumətinin formalaşdırılmasını elan edirik. Biz korrupsiyanın dövlət qurumlarına sızmasına imkan verməyəcəyik".

**Əhməd əş-Şəraa,**
**Suriyanın müvəqqəti prezidenti.**



"Guya biz final mərhələsini müzakirə etməyə hazır deyilik. Bu doğru deyil. Biz hazırıq. HƏMAS silahlarını yerə qoyacaq, liderlərinə zolağı tərk etməyə icazə veriləcək, biz Qəzzada ümumi təhlükəsizliyi təmin edəcəyik. Bu, bizim planımızdır. Bunu gizlətmirik və hər an müzakirə etməyə hazırıq".

**Benyamin Netanyahu,**
**İsrailin baş naziri.**

## REGİON XƏBƏRLƏRİ

### Tbilisi: PAYTAXT TBİLİSİDƏ BAYRAM NAMAZI QILINIB



***31 mart tarixində dünyanın bir sıra yerlərində olduğu kimi, Gürcüstanda yaşayan müsəlmanlar da müqəddəs Ramazan bayramını qeyd ediblər.*** Paytaxt Tbilisidə bayram namazında yerli və paytaxtda yaşayan digər ölkələrin müsəlman vətəndaşları iştirak ediblər. Bayram namazından əvvəl Gürcüstan Müsəlmanları İdarəsinin Şeyxi Hacı Faiq Nəbiyev xütbə söyləyərək ölkə və dünya müsəlmanlarını təbrik edib, sülh və əmin-amanlıq arzulayıb. Şeyx bayramın mahiyyəti və fəlsəfəsi barədə danışıb. Sonra müsəlmanların iştirakı ilə bayram namazı əda olunub.

### Mtsxeta: BAYRAM NAMAZI ƏDA OLUNUB



***Ramazan bayramı ilə əlaqədar Gürcüstanın bir çox regionlarındakı məscidlərdə olduğu kimi, Mtsxetanın Mtsxaldidi kəndində də bayram namazı qılınıb.*** Məscidin axundu Kərbəlayi Hüseyn və dəyərli ruhani Hacı Ramin İgidov, namazdan əvvəl ölkədə yaşayan müsəlmanları və İslam dünyasını müqəddəs Ramazan bayramı münasibətilə təbrik edib və onlar üçün dualar ediblər. Daha sonra kənd camaatının iştirakı ilə bayram namazı əda olunub.

### Marneuli: FİTR BAYRAMI QEYD OLUNUB

***Ramazan bayramı münasibətilə 31 mart saat 08:30-da Marneuli Mərkəzi Hz. İmam Əli (ə) Məscidində bayram namazı qılınıb.***



Səhər saatlarında yüzlərlə inanclı məscidə gələrək bayram namazında iştirak edib.

Namazdan sonra Hz. İmam Əli (ə) Məscidinin axundu Hacı Hacıyev camaata müraciət edərək onları Ramazan bayramı münasibətilə təbrik edib və ölkəmiz və dünya müsəlmanları üçün dualar edib.

Daha sonra məscidin həyətində bayram süfrəsi açılaraq iştirakçılara şirniyyat təqdim olunub.

### Dmanisi: YUXARI ORUZMAN KƏNDİNDƏ İFTAR SÜFRƏSİ TƏŞKİL OLUNUB



***Dmanisi bələdiyyəsinin Yuxarı Oruzman kəndində meriya tərəfindən 250 nəfərlik iftar süfrəsi təşkil olunub.***

İftarda Dmanisi meri Koba Muradaşvili və müavini Arif Süleymanov, Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət nazrinin Kvemo Kartli üzrə müşaviri Anar Süleymanov, bır sıra dövlət və din nümayəndələri, o cümlədən Bütün Gürcüstan Müsəlmanları İdarəsinin müftisi Etibar Eminov, Gürcüstan Azərbaycanlıları Konqresinin sədri Hüseyn Yusubov, ziyalılar, QafqazTürk Media kollektivi, kənd sakinləri və qonaqlar iştirak ediblər. Azanın oxunması ilə başlanan iftarda dualar və dini söhbətlər yer alıb. Dmanisi meriyası tərəfindən hədiyyələr təqdim olunub. Qonaqlar öz təəssüratlarını bölüşüblər.

## BEYNƏLXALQ HƏYAT

### AĞ EVDƏ İFTAR - TRAMP QONAQLARINI QƏBUL EDİB

***ABŞ Prezidenti Donald Tramp ikinci prezidentlik müddətinin ilk iftar proqramında Amerika müsəlman liderləri və bir sıra müsəlman ölkələrinin nümayəndələri ilə görüşüb.***

Tramp proqramdakı çıxışına "Ramazanınız mübarək" sözləri ilə başlayıb və 2024-cü il prezident seçkilərində Amerika müsəlmanlarının ona verdiyi dəstəyə görə təşəkkür edib.

Ağ Evdə keçirilən iftar proqramında Səudiyyə Ərəbistanı, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Livan, Pakistan və digər müsəlman ölkələrinin rəsmiləri iştirak ediblər.



Tramp çıxışı zamanı Yaxın Şərqdə davamlı sülh üçün apardığı siyasəti vurğulayaraq, *"Biz müsəlman icmasına verdiyimiz vədlərə əməl edirik. Hamının qeyri-mümkün olduğunu düşündüyü İbrahim Razılaşmalarına əsaslanaraq, Yaxın Şərqdə davamlı sülh üçün çalışırıq"* deyib.

Xüsusilə Miçiqan ştatında yaşayan Amerika müsəlmanlarına təşəkkür edən Tramp *"Prezident olduğum müddətdə sizin yanınızda olacağam. Daha parlaq və ümidli gələcək üçün birlikdə işləməyi səbirsizliklə gözləyirəm"* sözlərini əlavə edib.

Qeyd edək ki, tədbir müsəlman liderləri və ABŞ hökuməti arasında dialoqu gücləndirmək məqsədi daşıyır.

### Aİ-MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİ NAZİRLƏRİNİN GÖRÜŞÜNDƏ ORTA DƏHLİZİN GENİŞLƏNDİRİLMƏSİ MÜZAKİRƏ OLUNUB



***Tacikistan, Türkmənisan və Özbəkistanın Xarici işlər nazirləri, həmçinin Qazaxıstan və Qırğızıstanın XİN müavinləri martın 27-də Aşqabadda keçirilən Avropa İttifaqı-Mərkəzi Asiya ölkələri nazirlərinin 20-ci görüşü çərçivəsində Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə Ali nümayəndəsi ilə müzakirələr aparıblar.***

Nazirlər 2024-cü ilin yanvar ayında Brüsseldə keçirilən İnvestorlar Forumunun uğurunu qeyd ediblər və Avropa və beynəlxalq maliyyə institutlarının Trans - Xəzər Beynəlxalq Nəqliyyat Marşrutuna (Orta Dəhliz) 10 milyard avro həcmində investisiya qoymaq öhdəliklərini alqışlayıblar. Onlar Mərkəzi Asiya ilə Avropa arasında kommunikasiyanın yaxşılaşmasında, eynilə regionda iqtisadi inkişafın stimullaşdırılmasında bu dəhlizin vacibliyini vurğulayıblar.

Görüş iştirakçıları, həmçinin 2024-cü ilin iyun ayında Orta Dəhliz üçün əlaqələndirmə platformasının işə salınmasının təşkilində Qazaxıstanın və 2024-cü ilin oktyabr ayında yüksək səviyyəli tədbirin keçirilməsində Türkmənistanın rolunu vurğulayıblar. Onlar eyni zamanda regional ticarətin və logistikanın inkişafı üçün Cənubi Qafqaz ilə əməkdaşlığın vacibliyini təsdiqləyiblər.

Bundan başqa, görüşdə Aİ və Mərkəzi Asiya arasında münasibətlərdə ən vacib xammal resurslarına artan diqqət müzakirə edilib. Nazirlər Aİ ilə Qazaxıstan və Aİ ilə Özbəkistan arasında strateji tərəfdaşlığa dəstəklərini ifadə ediblər. Bu tərəfdaşlıq yerli istehsal-paylama zəncirlərinin gücləndirilməsinə, beynəlxalq standartlara uyğunluğa və dayanıqlı investisiyaların dəstəklənməsinə yönəlib.

### İSRAİLDƏ DƏ QƏDİM PİRAMİDA TAPILIB



***İsrail arxeoloqları Zohar vadisinin şimalındakı Yəhudeya səhrasında 2000 ildən çox yaxşı qorunmuş piramidal quruluş tapıblar.*** Onun məqsədi hələ də bəlli deyil, lakin binanın içərisində çoxlu müxtəlif artefaktlar var.

Tapıntı İsrail Qədim Əşyalar İdarəsinin (IAA) rəsmi saytında dərc edilib.

Alimlər müəyyən ediblər ki, piramida yüzlərlə kiloqram ağırlığında diqqətlə işlənmiş bloklardan hazırlanıb. Onun ticarət yolu boyunca yerləşən abidə, türbə və ya gözətçi qülləsi ola biləcəyi ehtimal edilir.

Quruluşun içərisində yunan mətnləri olan papirus parçaları, taxta əşyalar və hörmə səbətlər, silahlar, tunc sikkələr və qablar, hətta parça və toxum nümunələri aşkar edilib. Bütün bu əşyalar Ölü dənizin quru iqlimi sayəsində günümüzə qədər gəlib çatıb.

Arxeoloqlar müəyyən ediblər ki, piramida iki qədim imperiya - Ptolemeylər və Selevkilər arasında qarşıdurma dövründə tikilib. Birincilər Misir və İsraili, ikincilər isə şimal ərazilərinə nəzarət edirdilər. Lakin binanın dəqiq kimə məxsus olduğu hələlik məlum deyil.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**HAQQ - SAY** *is. [ər.]* Zəhmət, əmək.

*Bu mədəndə saç ağartmış ustanın, düzü,*
*Otuz illik haqqı-sayı, əməyi vardı.*
Ə. Cəmil.

// Çəkilən zəhmət, edilən yaxşılıq.

**Haqq-say itirmək**–edilən yaxşılığı itirmək, nankorluq etmək.

**HAQLAMAQ** *f.* Yüyürüb çatmaq, dalınca qaçıb yaxalamaq, başının üstünü almaq.

*Bazarçaydan gələn dəstə banditləri haqlamışdı.*
Ə. Vəliyev.

**HAQLAŞMAQ** *f.* Hesablaşmaq, haqqhesabı çürütmək, haqq-hesab çəkib üzülüşmək.

**HAQLI** *sif.* Düz deyən, düzgün fikirləşən, düz hərəkət edən, səhv etməyən (haqsız əksi).

*Xan, arvadının sözlərinin haqlı olduğunu anladı.*
Çəmənzəminli.

//Doğru, düz, düzgün, yerində, həqiqətə əsaslanan. *Haqlı təklif. Haqlı tələb. Haqlı etiraz.*

**Haqlı çıxarmaq** – bəraət qazandırmaq, doğrultmaq.

*Əmir bu sözləri dedikdən sonra qismən sakit olmuşdu. O, qadınını haqlı çıxarmağa və öz vicdanını qane etməyə tələsirdi.*
M. S. Ordubadi.

**HAQLILIQ** *is.* Fikirdə, mühakimədə, hərəkətdə və s. düzlük, düzgünlük, doğruluq; haqlı olma; haqq, ədalət. *Öz işinin haqlılığına inanmaq.*

**HAQSEVƏR** *is.* Haqqı, düzgünlüyü, doğruluğu sevib müdafiə edən adam.

*//Sif.* mənasında. [Cabbar:] *Sən özün haqsevən bir adamsan, bizi də yaxşı tanıyırsan, bilirsən də ki, Səfər bizim namusumuza və qeyrətimizə toxunub.*
B. Talıblı.

**HAQSIZ** *sif. və zərf* 1. Haqq və insafa uyğun olmayan; ədalətsiz, nahaq, əsassız. *Haqsız iddia. Haqsız cəza.*

*Mürsəqulu ... haqsız işə razı olmayan bir adam idi.*
S.Hüseyn.

**Haqsız yerə** – əbəs, nahaq, heç bir ehtiyac olmadan, boş yerə.

[Qanpolad:] *Səlim! Burax, haqsız yerə tökmə qan.*
H. Cavid.

2. Heç bir haqqı, hüququ olmayan.

**HAQVERMƏZ** *sif.* Başqasını işlədib haqqını verməyən, haqqını kəsən; istismarçı.

*Məlik tacir haqverməz adamdı.*
(Nağıl).

**HALA** *zərf [ ər. ] klas.* İndi, indi də, indiyədək, hələ də.

*Mənə derlərdi əvvəl, bir mələkdir sevdiyin. Hala,*
*Görənlər sən fəqirə göydən enmiş bir bəla derlər.*
Füzuli.

**HALAL** *sif. [ər.]* 1. İslam dininin ehkamlarına görə yeyilməsinə, işlədilməsinə və ya özünə mal edilməsinə icazə verilən (haram əksi).

*Əsmər yenə şəriətin hökmüncə* [Məmmədbağırın] *halal arvadı olub qalırdı.*
S. Hüseyn.

2. *məc.* Zəhmətlə, namusla, təmiz əməklə, qanuni yolla qazanılmış, əldə edilmiş.

[Yaşlı kişi tacirə:] *Sən mənim xeyirbərəkətimi qaçıracaqsan, sən mənim halal malıma haram qatacaqsan!... – deyərək uzun-uzadı deyinərdi.*
S. Hüseyn.

**Halal etmək** *köhn.* – borcunun, yaxud vaxtilə etmiş olduğu pisliyin üstündən keçmək, bağışlamaq.

[Xan:] *Arvad, ay gözəl arvad, bircə asudəlikdə qədrini bilmədim. Məni halal elə.*
Çəmənzəminli.

**HALALLIQ** *is.* : halallıq almaq – ölərkən və ya uzun müddət ayrılarkən vaxtilə etmiş olduğu pisliyin, yaxud qaytarmadığı borclarının bağışlanmasını xahiş etmək.

*Məşədi Əsgərin fikri bu idi ki, çamadan sahibini tapsın və əmanətini özünə rədd edib halallıq alsın.*
S. M. Qənizadə.

**HALAY** *is.* Dairə, dövrə.

**Halay vurmaq (qurmaq)** – dövrə vurmaq, halaylamaq.

*Göy üzündə bir dəstə qartal qanadlarını geniş açaraq halay vurub hərlənirdi.*
M. Rzaquluzadə.

**HALAYLAMAQ** *f.* Dövrə vurmaq, halay vurmaq, dövrələmək.

**HALBAHAL** *zərf [ ər. hal və fars. bə]* : **halbahal olmaq** haldan hala düşmək, halı dəyişmək, vəziyyəti gah pisləşib, gah yaxşılaşmaq. *Xəstə halbahal olurdu.*

**HALBUKİ** Bir-birinə zidd olan, bir-birini inkar edən iki fikrin qarşılaşdırıldığı tabesiz mürəkkəb cümlələrdə müstəqil cümlələr arasında əlaqə yaradan bağlayıcı; vəhalonki.

[Mansuru] *görə bilmirdim, halbuki başqa yoldaşlarımıza arabir rast gəlirdim.*
Çəmənzəminli.

**HALƏ** *is. [ ər. ]* Ayın və bəzi iri ulduzların ətrafında bəzən görünən işıq dairəsi.

*Fikrini, qəlbini çalmışdı ələn,*
*Mahtabın sulara düşən haləsi.*
S. Vurğun.

**Halə qurmaq (vurmaq)** – dairə vurmaq, dövrə vurmaq, halqa vurmaq.

*Aydınlıq gecədə gözəl bir çeşmənin kənarında cavanlar halə qurub, əyləşib, növbə ilə oxuyubçalanlara qulaq verirdilər.*
Ə. Haqverdiyev.

**HALƏLƏNMƏK** *f.* Ətrafında bəzən işıqlı dairə əmələ gəlmək (Ay və bəzi iri ulduzlar haqqında).

[Pərşan] *göylərin axşam parıltısında halələnmiş ( f.sif. ) ay kimi işıq verirdi.*
M. İbrahimov.

**HALƏT** *is. [ ər. ] klas.* Hal, vəziyyət.

*Naçalnik elə bir halətdə mənim üzümə baxırdı ki, deyirdim, bu saat durub məni yeyəcək.*
C. Məmmədquluzadə.

**HALƏTİ-RUHİYYƏ** *is. [ ər. ] klas. bax* **əhval-ruhiyyə.**

[Yaşlı kişi:] *Bədbincə bir haləti-ruhiyyə məni qapladı.*
S. Hüseyn.

**HALİ** *is. [ ər. ]* Bir hadisə, iş haqqında məlumatı, xəbəri olan; xəbərdar, agah.

*Haliyəm ellərin mən cümləsindən,*
*Gecə yatmaz bir-birinin bəhsindən.*
Aşıq Ələsgər.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!

***Hörmətli oxucular!***



Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

**"გამოცდებისკენ: თქვენი შრომის შედეგი მალე გამოჩნდება!"**

("Qamotsdebisken: tkveni şromis şedeqi male gamoçndeba!") **– "İmtahanlara doğru: zəhmətinizin bəhrəsini görəcəyiniz gün yaxındadır!"**

**გამოცდები ახლოვდება და ნელ-ნელა ყველა ემზადება.** ("Qamotsdebi axlovdeba da nel-nela ğvela emzadeba.") **– İmtahanlar yaxınlaşır və hər kəs yavaş-yavaş hazırlaşır.**

**ზოგჯერ დაღლილობას ვგრძნობთ, ზოგჯერ გვგონია, რომ ვერ შევძლებთ.** ("Zoqcer dağlilobas vqrdznobt, zoqcer qvqonia, rom ver şevdzlebt.") **– Bəzən yoruluruq, bəzən elə bilirik ki, bacarmayacağıq.**

**მაგრამ უნდა გვახსოვდეს: შრომა ყოველთვის ფასდება!** ("Maqram unda qvaxsovdes: şroma ğoveltvis pasdeba!") **– Amma unutmayaq: zəhmət həmişə qiymətləndirilir!**

**დღეს ჩვენი ყოველი მცდელობა ჩვენს მომავალ წარმატებას აშენებს.** ("Dğes çveni ğoveli mtsdeloba çvens momaval tsarmatebas aşenebs.") **– Bu gün etdiyimiz hər bir cəhd, gələcək uğurumuzun rəhnidir.**

**ბევრს გვენატრება თავისუფალი დრო, მეგობრებთან ყოფნა.** ("Bevrs qvenatreba tavisupali dro, meqobrebtan ğopna.") **– Çoxumuz boş vaxtı, dostlarla olmağı arzulayırıq.**

**მაგრამ უნდა გვესმოდეს: ცოტა დროის გაწირვა შეიწლება დიდ წარმატებას მოგვიტანოს!**

("Maqram unda qvesmodes: tsota drois qatsirva did tsarmatebas moqvitans!") **– Amma anlamalıyıq ki, qısa müddətli fədakarlıq böyük uğur gətirə bilər!**

**ეს პერიოდი რთულია, მაგრამ დრო მალე გაივლის და შრომა შედეგს გამოიღებს.** ("Es periodi rtulia, maqram dro male qaivlis da şroma şedeqs qamoiğebs.") **– Bu dövr çətindir, amma zaman tez keçəcək və zəhmət öz nəticəsini verəcək.**

**დღევანდელი გაკვეთილის თემა შემთხვევითი არ არის.** ("Dğevandeli tema şemtxveviti ar aris.") **– Bugünkü dərsimizin mövzusu təsadüfi deyil.**

**გვსურს, რომ მოტივაცია მოგცეთ, რომ კიდევ უფრო იმუშაოთ და არ გაჩერდეთ!** ("Qvsurs, rom motivatsia moqtset, rom kidev upro imuşaot da ar qaçerdet!") **– Sizə motivasiya vermək istəyirik ki, daha çox çalışasınız və dayanmayasınız!**

**ჩვენ ამ გზას ერთად გავდივართ და გვჯერა, რომ შეძლებთ!** ("Çven am qzas ertad qavdivart da qvcera, rom şedzlebt!") **– Biz bu yolu birlikdə gedirik və inanırıq ki, bacaracaqsınız!**

**ყველას წარმატებას გისურვებთ** (Ğvelas tsarmatebas qisurvebt) **- Hər kəsə müvəffəqiyyətlər arzulayırıq.**

## GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

*31 mart 2025-ci il* **"SAKARTVELOS RESPUBLİKA"**

### Gəzza Zolağında etnik təmizləmə
### Qafqaz ekspertlərinin Yaxın Şərqdəki hadisələrə baxışı

Gürcüstanda ekspert səviyyəsində Yaxın Şərq regionuna maraq artır. Bu il martın 28-də Tbilisidə 25-ə yaxın gürcü politoloq və jurnalistin, eləcə də xarici qonaqların iştirak etdiyi "Yeni dünya nizamı və Fələstin məsələsi" adlı dəyirmi masa keçirilib.

Əsas diqqət ABŞ-nin Yaxın Şərq siyasətində İsrailə birtərəfli dəstəyinin və Fələstin ərəb əhalisinin maraqlarına məhəl qoymamsının səbəblərinin təhlilinə yönəldilib. Konfransda dəfələrlə qeyd edilib ki, Qəzza zolağında baş verən humanitar fəlakət bütün dünyanı narahat edir və bizim kənarda durmağa mənəvi haqqımız yoxdur. Konfrans çərçivəsində mülki əhalinin hüquqlarının nə qədər ciddi şəkildə pozulduğunu göstərən sənədli kadrlar nümayiş etdirilib. Konfransda Fələstin və Suriyadakı ağır humanitar, sosial və iqtisadi vəziyyətin təkcə Yaxın Şərq üçün deyil, həm də bu regionla həmsərhəd olan Gürcüstan üçün yaranan təhlükələr spektrinə diqqət edilib.

Məruzəçi Qiorqi Mdivani Fələstin ərəb müqavimətinin sosial əsasları haqda, eləcə də Qəzzada baş verən fəlakət və ABŞ-nin keçmiş prezidenti Co Bayden və onun administrasiyasının sözügedən proseslərdəki rolu haqda danışıb.

Qulbaat Rtsxiladze məzhəb təfəkkürünün ABŞ-nin Yaxın Şərq strategiyasına təsirini qeyd edib. Onun sözlərinə görə, ABŞ-nin İsrailə təktərəfli dəstəyi sadəcə yəhudi lobbisinin (AIPAC və bənzərləri) çalışmalarının yox, eləcə də nüfuzlu amerikalı yevangelistlərin dini təfəkkürlərinin əsəridir. Bu rəsmi dövlət sənədlərində göstərilməyib, amma bir sıra fakt bu məsələyə işarət edir. Bunu amerikalı ekspertlər də qeyd edirlər. Vasil Papava Yaxın Şərq regionunda, o cümlədən Suriyada gedən proseslərin təhlili əsasında Fələstinin mümkün gələcəyi haqda danışıb. Ekspert reqion ölkələrinin əlaqələrini və biri - birinə təsirini vurğulayıb.

Tədbirdə qeyd edilib ki, Gürcüstan cəmiyyəti Yaxın Şərqdə gedən proseslərin siyasi və humanitar cəhətləri barədə məlumatlandırılmalıdır.

### Əhmədabadda birgə Hind-Gürcü Mədəniyyət Festivalı keçirilib

Gürcüstan Mədəniyyət Nazirliyinin dəstəyi ilə Zuqdidi, Dmanisi, Samtredia və Poti teatrları Hindistanın Qucarat ştatının Əhmədabad şəhərindəki Svarnimi Universitetində keçirilən Hind-Gürcü Mədəniyyət Festivalında iştirak ediblər.

Mədəniyyət Nazirliyinin məlumatına görə, sözügedən festivalda gürcü teatrları beş tamaşa təqdim ediblər və hind tamaşaçıları tərəfindən yüksək qiymətləndiriliblər. İkigünlük festival "Dinc Gələcək Naminə Mədəni Müxtəliflik" gürcü-hind təşkilatının təşəbbüsü ilə keçirilib. Təşkilat 2020-ci ildən Hindistanda gürcü mədəniyyətini fəal şəkildə təbliğ edir. Onun məqsədi iki ölkə arasında incəsənət və mədəniyyət sahələrində mövcud əlaqələri gücləndirmək və inkişaf etdirməkdir.

Əhmədabad şəhərinin meri, Svarnim Universitetinin prezidenti, Gürcüstan Mədəniyyət Nazirliyinin nümayəndələri və hindistanlı qonaqların iştirak etdiyi tədbirdə teatr mütəxəssisi Nikoloz Tsulukidze tamaşaçılar qarşısında çıxış edərək, gürcü mədəniyyəti haqda məlumat verib.

"Dinc Gələcək Naminə Mədəni Müxtəliflik" gürcü-hind təşkilatının sədri Darpan Praşer Gürcüstan və Hindistan arasındakı mədəni oxşarlıqları, adət-ənənələri, incəsənət sahəsində əməkdaşlığı, tarixi əlaqələri vurğulayıb. O dəstək üçün Gürcüstan Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirib.

*31 mart 2025-ci il* **"REZONANS"**

### Əgər qan tökülməsini dayandırmaq üçün razılıq əldə edə bilməsək və bunun Rusiyanın günahı olduğunu düşünsəm, neftə ikinci dərəcəli tariflər tətbiq edəcəyəm", - deyə Donald Tramp bildirib

Donald Tramp bildirib ki, o, Vladimir Putinə qəzəblidir və Ukrayna ilə sülh razılaşması əldə olunmasa, Rusiya neftinə rüsumlar tətbiq edəcək. Bu barədə ABŞ prezidenti NBC News telekanalına müsahibəsində danışıb.

"Putin Zelenskinin etibarlılığı və Ukraynanın yeni rəhbərliyi haqqında danışmağa başlayanda çox qəzəbləndim. Putin qəzəbləndiyimi bilir, amma onunla çox yaxşı münasibətim var və o, düzgün hərəkət etsə, qəzəb tez yox olacaq.

Əgər Rusiya və mən Ukraynada axan qanı dayandırmaq üçün razılığa gələ bilməsək və bunun Rusiyanın günahı olduğuna inansam (hətta bu həqiqətdə belə olmasa da, amma fikirləşsəm ki, Rusiyanın günahıdır), Rusiyadan çıxan bütün neftə ikinci dərəcəli rüsumlar tətbiq edəcəyəm. Belə ki, Rusiyadan neft alsanız, ABŞ-də bizneslə məşğul ola bilməzsiniz. Bütün neftə 25 faiz rüsum tətbiq olunacaq", - deyə Donald Tramp bildirib.

*28 mart —3 aprel 2025-ci il* **"VEÇERNİY TBİLİSİ"**

### Didi Diqomidən Didube metrostansiyasına qədər tramvay hərəkət edəcək

BM. ge biznes portalı xəbər verir ki, Tbilisi meriyası şəhərətrafı, geniş və sürətlə inkişaf edən Didi Diqomidən metronun Didube stansiyasına qədər 7,5 kilometrlik tramvay xəttinin çəkilməsi imkanlarını araşdırır. İlkin layihəyə əsasən, marşrut 11 dayanacaqdan ibarət olacaq və 10 tramvay xidmət göstərəcək. Hər tramvaya 300 nəfərə qədər sərnişin sığacaq. Bu mərhələdə ideyanın qiymətləndirilməsi və layihənin hazırlanması, o cümlədən, geodeziya işləri və sərnişin axınının təhlil prosesi gedir.

Layihənin işlənib hazırlanması altı aydan bir ilə qədər, depo ilə tramvay xəttinin və bütün lazımi infrastrukturun çəkilməsinin isə ən azı daha üç il ərzində davam edəcəyi gözlənilir.

Layihənin maliyyə dəyəri hələ qeyd olunmur.

## SAĞLAMLIĞIMIZI QORUYAQ

# YÜKSƏK QAN TƏZYİQİNİ AZALDAN 6 QİDA MƏHSULU

## BADAM, BİBƏR, KOKOS SÜDÜ, ÇİY KAKAO, ZƏRDƏÇAL (KURKUMA), DARÇIN

*(Əvvəli ötən sayımızda)*

### Darçın



Darçın Lauraceae fəsiləsinə aid həmişəyaşıl ağac növüdür. Bu ağacın yuxarı hissəsi üçbucaqlıdır və budaqları silindrikdir. Ağac bənövşəyi, 1 santimetrlik diametrə və tək toxumlu giləmeyvələrə sahibdir. Darçın nazik daxili qabığın 6-10 qatından ibarət, ağacdan ayrıldıqdan dərhal sonra bir-birinə dolanaraq çubuq halına düşən ağacın qurudulmuş qabığından hazırlanan ədviyyata deyilir. Həmin ədviyyatın əldə edilməsi üçün ağacın kəsilmiş və çubuq halına düşmüş qabığı qurudulur. Sözügedən qabıq nə qədər zərifdirsə, o qədər incə ətrə malikdir. Darçın çubuqları ətrini çox yavaş itirdiyi üçün uzun müddət saxlanılır.

Ən yüksək keyfiyyətli darçın Şri - Lankada istehsal olunur, lakin bitki Yava, Sumatra, Qərbi Hindistan, Braziliya, Vyetnam, Madaqaskar və Misirdə də becərilir. Qeyd edək ki, darçının iki əsas növü var: nəcib və ya əsl darçın kimi də tanınan Seylon darçını və kassiya, və ya ətirli adı ilə də məşhur Çin darçını. Seylon darçını yüksək keyfiyyətə malikdir və açıq sarımtıl və ya qəhvəyi nazik yumşaq qabıqdan hazırlanır, xoş ətir və qeyri-adi şirin, xoş dada malikdir.

Sözügedən ədviyyat mətbəxdə və ənənəvi tibbdə geniş istifadə olunur. Əsasən mətbəxdə desertlər, şokolad və qəbili konfetlərin hazırlanmasında ədviyyat və ya dadverici kimi istifadəolunur.YaxınŞərqdədarçıntoyuqvəqoyun ətindən hazırlanan acılı yeməklərə əlavə edilir.

***Darçının faydaları barədə bəşər qədim zamanlardan xəbərdardır.*** Belə, ənənəvi hind tibbində darçın qara bibər və nar dənələri ilə birləşdirilərək nəfəs darlığı, qaraciyər xəstəlikləri və həzm problemlərinin aradan qaldırılması üçün istifadə olunur. Ənənəvi Çin tibbində isə darçın demək olar ki, bütün müalicəvi tozların əsas tərkibidir.

Son elmi təcrübələrə əsaslanaraq, müasir tibb qədim təbiblərin haqlı olduğunu və darçının insan organizmi üçün faydalı olduğunu təsdiqləyib.

Seylon darçınının kimyəvi tərkibinə taninlər, qatranlar, saqqız, fenolik turşular, vitaminlər və minerallar daxildir. Tərkibində həmçinin ədviyyata xoş və zəngin ətir verən uçucu birləşmə eugenol daxildir. Darçının tərkibində kalium, manqan, dəmir, mis, selen, sink, A, B1, B2, B9, C, E, K vitaminləri kimi faydalı maddələr var. Kalori miqdarı 261 - dir. Darçın immunitet sistemini gücləndirir, iltihabəleyhinə və hemostatik xüsusiyyətlərə malikdir, yaddaşı yaxşılaşdırır və Alzheimer xəstəliyi ilə mübarizə aparmağa kömək edir. Ədviyyat ürək - damar sisteminə də müsbət təsir göstərir: LDL xolesterinin (aşağı sıxlıqlı lipoproteinlər) və triqliseridlərin səviyyəsini azaldır, eyni zamanda "xoş" HDL xolesterini (yüksək sıxlıqlı lipoproteinlər) sabit saxlayır; qanı duruldur və təzyiqi aşağı salır. Darçın antiviral və antibakterial vasitə kimi təsirlidir. Bundan əlavə, ədviyyat konsentrasiyanı artırır və görmə qabiliyyətini yaxşılaşdırır. İçkilərdəki darçın antioksidant xüsusiyyətlərinə görə orqanizmin qocalma prosesini ləngidə bilər. Seylon darçını daha faydalıdır və Çin darçını ilə müqayisədə daha kəskin ətrə malikdir. İstehsalçı ölkəni dəqiqləşdirmək vacibdir: əsl darçın Seylondan, kassiya isə Çindən, İndoneziyadan, Vyetnamdan gətirilir.

***Amma bəzi hallarda darçın orqanizm üçün zərərli xüsusiyyətlərə malikdir.*** Həddindən artıq istehlak bədəndə bədxassəli proseslərə və qaraciyərin zədələnməsinə səbəb ola bilər. Həmçinin, darçının həddindən artıq istehlakı qanda şəkərliliyi kəskin şəkildə azalda bilər.

Hamilə və körpə əmizdirən qadınlara bu ədviyyatdan istifadə etmək tövsiyə edilmir. Darçının kifayət qədər güclü dadı və qoxusu var, buna görə də bəzi insanlarda baş ağrısına səbəb ola bilər. Bundan əlavə, darçın ana südünün dadını da dəyişə bilər.

# APREL

*(Əvvəli 28 fevral tarixli sayımızda)*

Aprel və yaxud köhnə adı ilə İqrika bizdə həqiqi yaz ayıdır. Martda, əgər qışın ayazı gəlirsə və mayda isə bəzən yayın istisi bizimlə üzləşirsə, əvəzində aprel sevimli yazdır, nisbətən bərabər, xoşagəlimli isti, bu zaman yazın bütün başı ilə olanlar gəlmiş olur. Dərə-təpə yaşıllığa bürünür. Torpağın səthi min cür gül-çiçək ilə, çəmən ilə, istərsə də cücərti ilə daha da gözəlləşir. Apreldə təbiətin yaz libası, təbiətin alabəzək və qəşəng dony özünü büruzə verir. Məhz aprel ayında o müxtəlif rənglərlə bərq vurur ki, bunlar da aprelin sonunda güclənir, apreldə buğda zəmisi də bardaş qurur ki, onu da şıltaq sərin mehin sığalı coşdurur, onu başqa-başqa rəngə salır. Elə düşünəcəksiniz ki, dalğanın ləpələri indiyədək sükuta qərq olmuş və şəfəq saçan gölün səthi ilə şütüyüb keçdi.



Məhz elə bunun üçün bizim camaat arasında bir deyim var: "Zəmi deyib: Apreldə qədəmimi qoydum, mayda başımı qaldırdım, ot ayında isə ürəyimi qoydum və biçin ayında biçdim". Bu qısa deyimdə buğdanın inkişafının bütün və tam biologiyası görünür.

Apreldə min cür göyərti olur. Bu zaman çöl sarımsağı, qazayağı, çaşır otu, concol və bir çox başqa meşə və çöl bitkisi yığılır ki, bunlardan da turşu qoyurlar. Elə apreldəcə gicitikən, qulançar, mərəvcə, çətənə, sirkən, cincilim, adi mayaotu, güllücə, əməköməci və sairdən istifadə edirlər.

Aprel ayında badam və şaftalı, qaysı və ərik, yabanı alça və alça çiçək açır. Bizdə aprel gəlinə bənzəyir, toya hazırlaşır. Ayın sonunda isə daha ciddi meyvə - alma və armud, heyva və əzgil gül açır. Yazın özü və başı ilə gətirdikləri artır - sarı növruzgülü, zambaq, bənövşə, çobanyastığı, süsən. Uçub gələsi quş gəldi. Çöl heyvanları da cana gəldilər. Çox qızğın cikkilti, rahatlanmayan uçuş, yuva qurmaq, onun ora-burasını sahmana salmaq, erkək və dişinin bir-birini axtarması-cütləşməsi baş verir. Hamısı ilin nəticə vermədən keçməməsinə çalışır - nəsil versin.

Uşaqlar və ümumiyyətlə, şagirdlər ekskursiyaya daha həvəslə gedirlər. Onların hay-küyü quşların cəhcəhinə qarışır, bitkilərə diqqət kəsilirlər - hansı çiçəkləndi, hansı gül açmağa başlayır, hansı gülünü tökməyə başladı. Bitkinin ziyanverici həşəratı üzərə çıxdımı, ya yox. O nə qədərdir? Əgər nəzərə çarpsa ki, çoxdur, dərhal aqronoma məlumat verirlər ki, bir tədbir görsün. Müşahidənin əsas vəzifələrindən biri budur: Quş və ov necə davranır, hansısı yuva salıb, hansısı yuva salır və sair. Eləcə də arını müşahidə edirlər: Hansı çiçəyə meyl edirlər və şirəni hardan alırlar. Elə aprel ayından müalicə bitkilərinin toplanılmasına başlanılır. Apreldə çox yerdə zambaq yaxşıca çiçək açır və bu zaman toplanmış zanbaq dərman hazırlamaq üçün çox qiymətlidir.

Kənddə də daha çox canlanmadır, daha doğrusu, kəndin bağ və üzümlüklərində və tarlada hər yerdə camaat bayıra çıxıb, min cür bəzənib - düzənib, cürbəcür donla, baş örtüyü ilə və ümumiyyətlə, yeni libasla.

Aprel ilk növbədə, dağda və aranda səpin ayıdır. (Dəniz səviyyəsindən 1.200 metr yüksəkliyə qədər). Hər cür tərəvəz bitkisi səpilir, cığırlar açılır, suvarma arxı çəkilir və sair. Aranda tərəvəz bitkilərinin səpilməsi aprelin yarısından o yana keçsə, bizim kolxozumuz "Məhsul daha gətirməz " deyir. Lakin başlıcası, tarladır; tarladır bizim kəndin dirəyi, kəndin taxılı olmasa, özünü yaxşı hiss etməz. "Kəndli nə satdı - taxıl və şərab; nə aldı - taxıl və şərab",- deyirlər. Belə ki, təsadüfi deyilməmişdir. Buna görə də tarlada yazın dənli bitkilərinin - buğda və arpa, yulaf və darı səpini geniş vüsət almışdır. Yaxşı əkilmiş, şumlanmış yerdə, heyvandarlığın ciddi əsası olan qarğıdalı səpilir. Dağda, günəşin tutduğu yerdə, artıq quru olan yerdə əkilir, səpinə hazırlanır.

Tərəvəz və tənbəkinin istixanalarında şitilin yetişdirilməsi davam etdirilir. Yaxşı havalar olanda elə aprel ayından onun səpini və ona qulluq başlayır. Yemiş-qarpız, xiyar, balqabaq və onu kimilər səpilir.

Çay plantasiyalarında zənbilli qadınlar görünür, mineral kübrələrin ilk dəstəsi gətirilir.

Üzüm bağında iş və zəhmət geniş vüsət alır, tənəyin dibinin doldurulması başlayır. O tezcə qurtarmalıdır; yoxsa isti yazda körpə tənəyi bitirə bilmərik.

Aprel ayında yeni üzüm bağının (yeni salınmış üzümlüyün) və bağın salınması da, köhnə bağın bellənməsi, ağacın gövdəsinin böyük budaqlarının ağardılması başa çatdırılmalıdır. İlk dərmanlama başlayır. Erkən dərmanlama yaxşı məhsulun zəmanətidir.

Buğda cücərtisini əgər ayazlı qış zədələmədisə, adətən apreldə zəmi yaşıllığa bürünərək ləngər vurur. Bu ləngərdə alaq otları da iştirak edir. Çöl kələmi, şalğam, ağ qanqal, çöl xardalı, qazayağı və başqa köklü yarpaqlar zəmidə geniş şəkildə sərgilənirlər. Alaq görünən kimi alaq etmə işinə dərhal başlamalıyıq. Vaxtında zəminin alaqdan təmizlənməsi məhsulun yarısı deməkdir. Bax, buna görə də aprelin bağlanğıcında ehtiyatlı kolxozun tarlalarında camaatın uzun cərqəsi zəmiyə yönəlir, alağını alır və təmizləyir.

Ta qədimdən alaq işində uşaqlara və yeniyetmələrə birincilik nəsib olub. Onların qırmızı-sarı don-qoftası yaşıl zəmidə elə alabəzək olurdu ki, düşünərdin ki, tarlanı lalə dəstəsi bürüyüb. Yeniyetmə naturalistlər tarlanı alaqdan təmizləməklə ölkənin var-dövlətinin artırılmasında böyük xeyir verirlər. Bundan başqa, alaq vurma zamanı alaq otlarının kolleksiyası toplanılmalı, onların biologiyası öyrənilməlidir.

Heyvanı da yaddan çıxartmamalıyıq. Soya səpilməli, eləcə də otqarışıq, yonca, lərgə aqrotexniki qaydalarla onların səpilməsinin lazım olduğu yerə səpilməlidir. Gecikmə halları hər halda bir biçilmiş yerin itirilməsi deməkdir.

Apreldə hazırlıq işləri görülür ki, may ayından heyvan dağ otaracaqlarına aparılır. Dərmanlama, yenidən seçmə və sair işlər aparılır.

Bir sözlə, aprel o aydır ki, builki məhsulun ilk aylarında artıq tökülməsinin başlandığı təmələ əsas divar əlavə olunur.

**Niko Ketsxoveli.**

***Tərcümə etdi: Mirzə Məmmədoğlu.***

# ƏNƏNƏVİ TƏDBİRİN 30 İLLİYİ QEYD OLUNUB

Xalqımızın ən sevimli bayramlarından olan Novruz bayramı öz gəlişi ilə təbiəti canlandırır, ürəkləri sevinclə doldurur, xoş xəyallara qanad taxır.

Qardabani rayonunda təntənəli şəkildə qeyd olunan Novruz şənliyi artıq 30-cu dəfədir ki "Qara kəmər" sahibi Şakir Binnət oğlu Mustafayevin təşkilatçılığı ilə keçirilir.

İnsanlara xoş ovqat bəxş edən bu şənlik ziyalıların, ictimai fəalların, gənclərin, yazıçı-şairlərin iştirakı ilə yaddaqalan bir günə çevrildi... Şənliyin fəal iştirakçılarına rəmzi hədiyyələr təqdim olundu. Zurnalar dəstəsinin zəng qatdığı tədbir cıdır yarışı ilə yekunlaşdı.



**Nadir Bayramlı.**

# MÜƏLLİMLİK MÜCƏSSƏMƏSİ



Müəllim haqqında çox söz deyilib, çox yazılıb. Müəllim cəmiyyətin inkişafında, ictimai həyatda rolu, əvəzsiz zəhməti haqqında müxtəlif rəvayətli fikirlər söylənib. Çünki müəllimlik peşəsi öz müqəddəsliyi, paklığı, şərəfliliyi, nüfuzu ilə təkrar olunmazdır. Müəllim dünyası, müəllim aləmi öz nuru, ziyası ilə bütün bəşəriyyətə işıq saçır. Böyük dövlət xadimi Türkiyəni azadlığa çıxarmış Mustafa Kamal Atatürkün bir kəlamı var: "Müəllim bir şama bənzər, özünü əridərək başqalarına işıq verir".

Ömrünü şagirlərinin vətənpərvər və savadlı böyməsinə həsr etmiş bir müəllim haqqında söhbət açmaq istəyirəm. Vətənpərvər, xeyirxah, mərhəmətli, alicənab bir ziyalı haqqında.

Cəmilə Dilənçi qızı Qabulova 1957-ci il oktyabrın 10-da Qırğızıstan Respublikasının Karl Marks kəndində ziyalı ailəsində anadan olub.

**Qısa arayış:** Cəmilə müəllimin nəsli 1944-cü ildə repressiya nəticəsində Gürcüstanın Boqdanovka rayonunun Sağamoy kəndindən Qırğızıstana sürgün olunmuşlar. Atası Dilənçi dayı (bacısı Muluxsa xala Kürüstü Kəpənəkçidə yaşayırdı, neçə dəfələrlə bu kəndə qonaq gəlib. Xatırladıram ki, bizim kəndin neçə sakini - Binnət, İsə, Əjdər, Nizam və Rüstəm müəllim Dilənçi dayının ailəsində qonaq olublar, bu ailənin qonaqpərvərliyindən ağız dolusu danışırdılar) və anası, İzzət xala, zəhmətkeş, səmimi insanlar olublar.

Ailədə 10 övlad dünyaya gəlib. İzzət xala çoxuşaqlı ana kimi Qəhrəman ana adına layiq görülüb. Ana məhəbbəti və halal ata zəhməti nəticəsində 10 övladın hamısı ali təhsil alıb. Cəmiyyət üçün dəyərli insanlar olublar. Bu anda şair - publisist Qiymət Məhərrəmlinin şeirini xatırlamaq yerinə düşür:

*Harda halallıq var, min bərəkət var,*
*Harda abır, həya, namus, qeyrət var*
*Orda övladlara şam-çıraq, tutar,*
*Ana məhəbbəti, ata zəhməti.*

Cəmilə 1974-75-ci tədris ilində özbək dilində orta məktəbi əla qiymətlərlə bitirib, 1981-ci ildə Daşkənd şəhərində Nizami adına Universitetin riyaziyyat fakültəsini qırmızı diplomla başa vurub, tələbə elmi cəmiyyətinin fəal üzvlərindən biri kimi dəyərli çıxışları ilə riyaziyyat fakültəsinin adını yüksəklərə qaldırıb. 1981-ci ilin payızında ata-baba yurdunda Cavanşir Əlləz oğlu Bayramovla ailə qurub. 1983-cü ildən Marneuli rayonu Alget 3 saylı orta məktəbinə riyaziyyat müəllimi təyin olunub. VII-IX–cu siniflərin səviyyəsində riyaziyyat fənni üzrə sertifikat imtahanı verərək baş müəllim statusu alıb. Halhazırda həmin məktəbdə şagirdlərin təlim – tərbiyəsi ilə məşğul olur.

Xatırladıram ki, müəllimdə birinci öyrətmə qabiliyyəti yüksək olmalıdır, öyrətmə qabiliyyətini yüksəltmək üçün müəllim mövzunu sadə dildə şagirdləri yormadan izah etməlidir. Bir qayda olaraq Cəmilə müəllim yazı taxtasında işləməyə çağırdığı şagirdə: " Bu çalışmanı sən necə həll etməyi məqsədəuyğun bilirsən?"–deyə müraciət edir. Müəllimin şagirddə özünə qarşı bir cür inam yaratması, şagirdləri daha çox oxumağa və axtarmağa sövq edir. Təlimdə əsas müvəffəqiyyət isə müasir dərsə verilən tələblərlə bağlıdır; Cəmilə müəllimə bu tələblərlə işləməyi bacarır. O, zəif şagirdlərlə dərs prosesində fərdi yanaşma üsulundan da istifadə edir.

Müəllimin güzgüsü onun şagirdləridir. Hər bir şagird müəllimlərin dərs prosesində mövzuları şagirdlərə necə mənimsətməsini yaxşı bilirlər. Məşhur pedaqoqlar deyiblər ki: "Əsl müəllim olmaq üçün pedaqoji mərifətin o qədər zənqin olmalıdır ki, şagirdlər səni ən əzizləri kimi sevsinlər". Cəmilə müəllimin şəxsi davranışı, ədəb-ərkanı, savadlı söhbətləri şagirdlər, müəllimlər və valideynlər arasında xüsusi hörmət qazandırmışdır. O, gənc müəllimlərə pedaqoji təcrübəsini ətraflı izah edir.

Məktəb direktoru Məhəmməd Yüzbaşovun dedikləri: *"Mən uzun illərdir ki, Cəmilə müəllimlə bir kollektivdə direktor işləyirəm. Kollektivdə bacarıqlı və istedadlı müəllimlər çoxdur, onlardan biri də şagirdlər tərəfindən sevilib, hörmət edilən Cəmilə müəllimdir. O, dərs prosesində özünəməxsus pedaqoji metodlardan dəqiqliklə istifadə etməklə, sinifdə şagirdlərin hamısını fəallaşdırır. Şagirdlərin dünyagörüşünü formalaşdırmaq, onların fəallığını artırmaq üçün riyaziyyat dərnəyi və gecələrin təşkilində Cəmilə müəllimin böyük əməyi vardır. Onun hazırladığı şagirdlər yüksək balla müxtəlif ali məktəblərə daxil olmuşlar. O, nəinki, şagirdlərə riyaziyyat fənnini sevdirir, həm də şagirdlərin mənəvi anasıdır, şagirdlərə ailə, məişət qayğılarını da öyrədir. Qız uşaqlarına tikiş tikmək, dadlı yeməklərin hazirlanması üsullarını öyrədir. Eyni zamanda erkən və məcburi nigahın qarşısını almaq üçün yuxarı sinif qızları ilə fərdi söhbətlər təşkil edir. Sevindirici haldır ki, belə müəllimlərin köməyi ilə qızlarımızın çoxu müxtəlif ali məktəblərdə oxuyurlar".*

Gəlin açıq deyək, qızlarımızın maariflənməsində "Gürcüstan" qəzetində dərc olunan erkən nigah haqqında müxtəlif səpkili yazıların da rolu böyük olmuşdur. Bu səpkili yazılar valideynləri də maarifləndirir.

Cəmilə müəllim, həm də qayğıkeş anadır. O, ömür-gün yoldaşı Cavanşir müəllimlə (Allah rəhmət eləsin!) iki oğul böyüdüb tərbiyyə ediblər. Hər ikisi ali təhsilli, cəmiyyətimiz üçün layiqli övladlardır. Gəlinlərinin ikisi də ali təhsillidir, 4 şirin-şəkər nəvələri var. Allah qorusun!

Cəmilə müəllimə uzun ömür və möhkəm can sağlığı arzu edirik!

**Suddarxan Kazımov.**

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ




### 4 aprel

•1147 — Tarixi qeydlərdə ilk dəfə Moskvanın adı iki şahzadənin görüş yeri kimi qeyd olunub

•1899— David Badridze, gürcü müğənni, anadan olub.

•1949—Vaşinqtonda NATO-nu yaradan Şimali Atlantika Müqaviləsi imzalanıb.

•1975—Microsoft şirkəti Bill Qeyts və Pol Allen tərəfindən Nyu-Meksiko ştatının Albukerke şəhərində təsis edilib.

•Macarıstan — **Qurtuluş Günü (1945)**

### 5 aprel

•1897— Yunanıstan və Osmanlı İmperiyası arasında müharibə başlayıb.

•1945— SSRİ Yaponiya ilə Hücum etməmək Paktının ləğv olunduğunu elan edib.

•2011— Konqo Demokratik Respublikasında təyyarə qəzası nəticəsində bütün ekipaj üzvləri və göyərtəsində olan 32 sərnişin, o cümlədən 20 BMT əməkdaşı və 4 Gürcüstan vətəndaşı həlak olub.

•2014— Mərkəzi Amerikada ilk metro sistemi Panamada açılıb.

### 6 aprel

•648— Qədim yunanlar tərəfindən qeydə alınan ən erkən günəş tutulması baş verib.

•1814—Napoleon Bonapart taxtdan imtina edib. Daha sonra Elbaya sürgün edilib.

•1917—ABŞ Almaniyaya müharibə elan edib.

•2015— Ukrayna şahmatçısı Mariya Muzıçuk qadınlar arasında dünya çempionu olub.

Efiopiya—Qələbə günü

### 7 aprel

•1954 — **Ceki Çan, Çin aktyoru, anadan olub.**

•1969 — İnternetin simvolik doğum tarixi: IETF sənədlər seriyasının nəşri.

•1980—ABŞ İranla diplomatik əlaqələri kəsib.

•1992 —Azərbaycan Hava Yolları təsis edilib.

•Mozambik — Qadınlar Günü

•Sloveniya — Bayraq Günü

### 8 aprel

•1867 Parisdə ilk Ümumdünya Sərgisi açılıb.

•1955—**Aleksandre Çivadze, gürcü futbolçu, anadan olub.**

•2018—Leyla Abaşidze, gürcü aktrisası, vəfat edib.

•Beynəlxalq Qaraçılar Günü.

### 9 aprel

•1902—Aleksandre Baramidze. gürcü ədəbiyyatşünas, anadan olub.

•1927—Tbilisiyə ilk elektrik enerjisini verən ZaHES su-elektrik stansiyası işə salınıb.

•1991— 31 mart ümumxalq səsverməsinin nəticələrinə əsasən Gürcüstan Respublikasının Ali Şurası "Gürcüstanın Dövlət Müstəqilliyinin bərpası haqqında Akt" qəbul edib.

•2010— Atom nömrəsi 117 olan kimyəvi element olan ununseptiumun ilk uğurlu sintezi əldə edilib.

•2024—Simon Harris İrlandiyanın ən gənc baş naziri olub.

•Gürcüstan — Milli Birlik Günü ( Dövlət Müstəqilliyinin Bərpa Günü)

### 10 aprel

•1018 — Nizamülmülk, Fars alimi və siyasətçisi anadan olub.

•1927—Qiorqi Tsereteli, gürcü şair, anadan olub.

•1939 — Teymur Mustafayev, Azərbaycan xanəndəsi anadan olub.

•1970 — Pol Makkartni şəxsi və peşəkar səbəblərə görə "The Beatles"dən ayrıldığını elan edib.

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## ALEKSANDR ÇİVADZE



Aleksandr Çivadze Gürcüstanın futbol tarixində dərin iz buraxmış tanınmış futbolçu və məşqçidir. Onun adı təkcə Gürcüstanda deyil, keçmiş SSRİ məkanında da geniş tanınır. Çivadze peşəkar futbolçu kimi parlaq karyeraya sahib olmaqla yanaşı, sonradan Gürcüstan futboluna dəyərli töhfələr vermiş məşqçi kimi də yadda qalıb.

Aleksandr Çivadze 8 aprel 1955-ci ildə Gürcüstanda, Kutaisi şəhərində dünyaya gəlib. Futbola olan sevgisi onu gənc yaşlarından bu idman növü ilə ciddi məşğul olmağa sövq etdi. Futbolun sirlərini mənimsədikcə onun potensialı daha da aydın görünürdü və Çivadze qısa müddətdə istedadlı müdafiəçi kimi diqqət çəkməyə başladı.

Aleksandr Çivadze karyerasının böyük hissəsini Tbilisinin "Dinamo" klubunda keçirdi. 1970-ci illərin sonlarından etibarən "Dinamo"nun əsas oyunçularından biri oldu və komandanın müdafiə xəttinin əvəzolunmaz liderinə çevrildi. Çivadzenin texnikası, "oyun oxumaq" qabiliyyəti və liderlik keyfiyyətləri onu həm komanda yoldaşlarının, həm də azarkeşlərin sevimlisinə çevirdi.

Onun karyerasının zirvəsi 1981-ci ilə təsadüf edir. Həmin il Aleksandr Çivadze Tbilisi "Dinamo"sunun heyətində UEFA Kuboklar Kubokunu qazandı. Bu tarixi qələbə Gürcüstan futbolunun ən parlaq səhifələrindən biri oldu və Çivadzenin adı bu uğurda əsas rol oynayan simalardan biri kimi yadda qaldı.

Çivadze eyni zamanda SSRİ yığma komandasının heyətində də çıxış edib. O, 1982-ci ildə İspaniyada keçirilən dünya çempionatında SSRİ milli komandasının kapitanı kimi çıxış edərək öz güclü oyunu ilə seçilib.

Futbolçu karyerasını başa vurduqdan sonra Aleksandr Çivadze məşqçiliyə başladı. O, Gürcüstan milli komandasının baş məşqçisi kimi çalışıb və bu vəzifədə yerli istedadların yetişməsində mühüm rol oynayıb. Çivadze Gürcüstan futbolunun inkişafına verdiyi töhfələrlə tanınır və onun təcrübəsi gənc futbolçular üçün dəyərli bir örnək olub.

Aleksandr Çivadze Gürcüstan futbolunun canlı simvolu sayılır. Onun adı intizam, əzmkarlıq və vətənpərvərliklə yanaşı çəkilir. Çivadzenin idmanda göstərdiyi qətiyyət və liderlik xüsusiyyətləri onu təkcə futbol meydanında deyil, cəmiyyət içində də nümunəvi bir şəxsiyyətə çevirib.

Aleksandr Çivadze Gürcüstanın futbol tarixinə adını qızıl hərflərlə yazdırmış əfsanəvi simalardan biridir. Onun oyun üslubu, kapitan kimi göstərdiyi liderlik və məşqçi kimi gənc istedadlara verdiyi dəstək onu Gürcüstan futbolunun unudulmaz şəxsiyyətlərindən birinə çevirib. Çivadzenin həyatı və karyerası əzmkarlığın və peşəkarlığın parlaq nümunəsidir.

## CEKİ ÇAN



Ceki Çan dünya kinematoqrafiyasında əvəzsiz iz buraxmış, döyüş sənətləri ustası, aktyor, rejissor və prodüserdir. Onun həyat yolu əzmkarlıq, inadkarlıq və yaradıcılıqla doludur. Ceki Çan təkcə ekranda sərgilədiyi təsirli döyüş səhnələri və komediya ustalığı ilə deyil, həm də humanist dəyərləri və cəmiyyətə göstərdiyi xeyirxah əməllərlə milyonların qəlbini fəth edib.

Ceki Çan 7 aprel 1954-cü ildə Honq-Konqda, Çarlz və Lili Çanın ailəsində dünyaya gəlib. Uşaqlıq illəri kasıbçılıqla keçən Ceki Çanın valideynləri onu daha yaxşı gələcək ümidi ilə Çin Dram Akademiyasına yazdırıblar. Burada o, ağır fiziki məşqlərlə yanaşı, akrobatika, döyüş sənətləri və aktyorluq dərsləri alıb. Bu sərt təlimlər Ceki Çanın gələcək karyerası üçün möhkəm zəmin yaradıb.

Ceki Çan aktyor kimi karyerasına uşaq yaşlarından kiçik rollarla başlayıb. Ancaq onun böyük uğuru 1970-ci illərdə gəlməyə başlayıb. Döyüş sənətləri ustası olan Bryus Linin vəfatından sonra Honq-Konq kinematoqrafiyası yeni qəhrəman axtarırdı. Ceki Çan ənənəvi döyüş filmlərinə komediya elementləri əlavə edərək fərqli üslub yaratdı. Onun 1978-ci ildə çəkildiyi "Snake in the Eagle's Shadow" (Qartal kölgəsində ilan) və "Drunken Master" (Sərxoş usta) filmləri onun adını geniş kütlələrə tanıtdı.

Ceki Çanın Hollivuda yolu isə heç də asan olmadı. İlk vaxtlar Hollivud rejissorları onun özünəməxsus üslubunu tam dəyərləndirə bilmirdilər. Lakin o, israrla öz tərzini qoruyaraq nəhayət, 1990-cı illərdə "Rumble in the Bronx" (Bronksda mübahisə) və "Rush Hour" (Pik saatı) kimi filmlərlə beynəlxalq şöhrət qazandı.

Ceki Çanı digərlərindən fərqləndirən əsas cəhət onun döyüş səhnələrində dublyor istifadə etməməsi və təhlükəli tryukları özünün icra etməsidir. Bu cəsarəti səbəbindən o, bir neçə dəfə ağır xəsarətlər alıb, lakin bu, onun işinə olan sevgisini heç vaxt azaltmayıb.

Ceki Çan yalnız aktyor kimi deyil, həm də xeyriyyəçi kimi tanınır. Kasıb ailədə anadan olan Çan bu gün artıq dünyanın ən çox qazanan aktyorlarından biri hesab edilir. Milyonları olmasına baxmayaraq, Çan özünün kasıb keçmişini unutmur. Bu məqsədlə də həvəslə xeyriyyəçiliklə məşğul olur.

Ceki Çan təkcə Asiya kinosunun deyil, dünya kino sənayesinin ən tanınmış simalarından biridir. Onun filmləri təkcə döyüş və aksiyanı deyil, həm də mədəniyyətlərarası dialoqu təbliğ edir. O, 2004-cü ildə Beynəlxalq Kino Akademiyası tərəfindən fəxri mükafatla təltif edilib, 2016-cı ildə isə Oskar mükafatına layiq görülüb.

Ceki Çanın həyatı və yaradıcılığı milyonlarla insana ilham verir. Onun uğur hekayəsi əzmkarlıq, əməksevərlik və özünə inamın insanı necə zirvələrə qaldıra biləcəyinin bariz nümunəsidir.

## MACARISTAN



Macarıstan—Mərkəzi Avropada dövlət. Ortadunay düzənliyində yerləşən bu ölkə şimaldan Slovakiya, şimal-şərqdən Ukrayna, şimal - qərbdən Avstriya, şərqdən Ruminiya, cənubdan Serbiya, cənub - qərbdən Xorvatiya və qərbdən Sloveniya ilə həmsərhəddir. Təqribən 10 milyon nəfər əhalisi ilə Avropa İttifaqının üzvü olan orta ölçülü dövlətdir. Ölkənin rəsmi dili Ural dilləri ailəsinə aid olan macar dilidir. Macarıstanın paytaxtı və ən böyük şəhəri Budapeştdir.

**Tarixi:** Macarıstanın tarixi dərin köklərə malikdir. Macarların əcdadları IX əsrdə Orta Asiyadan köç edərək indiki Macarıstan ərazisinə gəlmiş və burada məskunlaşmışlar. 1000-ci ildə I İştvan Macarıstan Krallığını quraraq xristianlığı dövlət dini elan edib. Orta əsrlərdə Macarıstan Avropanın güclü krallıqlarından birinə çevrilib.



1526-cı ildə baş verən Mohac döyüşündə Osmanlı İmperiyası Macarıstanı işğal edib və bu hakimiyyət 150 ilə yaxın davam edib. Daha sonra Habsburqlar sülaləsinin hakimiyyəti altında Macarıstan Avstriya-Macarıstan imperiyasının tərkibində mühüm rol oynayıb. I Dünya Müharibəsindən sonra Trianon müqaviləsi ilə Macarıstan öz ərazilərinin böyük hissəsini itirib.

II Dünya Müharibəsindən sonra Macarıstan sosialist rejimi altında SSRİ-nin təsir dairəsinə düşdü. 1956-cı ildə baş verən Macar İnqilabı Sovet İttifaqının hərbi müdaxiləsi ilə yatırıldı. 1989-cu ildə Macarıstan demokratik idarəetməyə keçərək Avropa İttifaqının və NATO-nun üzvü oldu.

**Coğrafiyası:** Macarıstan Mərkəzi Avropada, Duna (Dunay) və Tisa çayları arasında yerləşir. Ölkə əsasən düzənliklərdən ibarətdir, xüsusilə Böyük Macar Düzənliyi (Alföld) ərazini əhatə edir. Şimal - qərbdə Alp dağlarının ətəkləri və şimalda Karpat dağlarının bir qolu olan Matra silsiləsi yerləşir ki, buradakı Kekes dağı (1014 m) ölkənin ən yüksək nöqtəsidir. Faydalı qazıntı ehtiyatları azdır. Əsas təbii sərvəti boksit yataqlarıdır. Az miqdarda daş kömür, neft, təbii qaz, mis və uran ehtiyatlarına malikdir.

İqlimi mülayim kontinentaldır. Yay ayları isti və quru, qış ayları isə soyuq və qarlı keçir. Belə əlverişli iqlimin olması və həmçinin geniş düzənlik sahələr və məhsuldar torpaqlar burada kənd təsərrüfatının inkişafı üçün əlverişli imkan yaradır. Təbii bitki örtüyü insanlar tərəfindən çox dəyişdirilmişdir. Ərazinin 16%-ni meşələr təşkil edir. Mənzərəli Balaton gölü və başqa təbii imkanlar hesabına turizmin inkişafına nail olunmuşdur.

**İqtisadiyyatı:** Macarıstan inkişaf etmiş sənaye və kənd təsərrüfatı bölməsi ilə tanınır. Avropanın mühüm iqtisadi mərkəzlərindən biri olan Macarıstan əsasən avtomobil istehsalı, elektronik məhsullar, kimya sənayesi və kənd təsərrüfatı sahələrində inkişaf edib. Macarıstan Avropa İttifaqının üzvü olsa da, ölkədə avro deyil, forint (HUF) rəsmi valyuta kimi istifadə olunur.

**Mədəniyyəti:** Macarıstan zəngin mədəni irsə malikdir. Ölkə dünyaya Ferens List, Béla Bartók, Zoltán Kodály kimi məşhur bəstəkarlar bəxş edib. Macar mətbəxi də özünəməxsusluğu ilə seçilir və gulaş, pörkölt, lángos kimi yeməkləri ilə tanınır. Macarıstan həmçinin xalq rəqsləri, ənənəvi musiqisi və rəngarəng festivalları ilə məşhurdur.

**Turizmi:** Macarıstan Avropanın ən populyar turizm istiqamətlərindən biridir. Budapeştdəki tarixi Buda qalası, Parlament binası, Seçeni termal hamamı və Qəhrəmanlar meydanı şəhərin əsas görməli yerlərindəndir.

Macarıstanın digər məşhur turistik məkanları bunlardır: Balaton Gölü – "Macar Dənizi" adlandırılan bu göl yay aylarında turistlərin sevimli məkanına çevrilir.

Eger Qalası – Tarixiliyi və şərabçılıq mədəniyyəti ilə tanınır.

Hortobágy Milli Parkı – UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş bu ərazi Macarıstanın təbii gözəlliyini nümayiş etdirir.

**Təhsil və Elm:** Macarıstan təhsil və elmi nailiyyətləri ilə də tanınır. Budapeştin Eötvös Loránd Universiteti və Debretsen Universiteti ölkənin aparıcı ali təhsil müəssisələrindəndir. Macarıstan həmçinin Nobel mükafatına layiq görülmüş bir çox alimləri ilə məşhurdur.

GÜRCÜSTAN
Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება
"საქართველო"
"S A K A R T V E L O"
Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა



İDMAN

## "YUVENTUS" GÜRCÜSTANDA YENİ 15 YAŞLI "KVARATSXELİA" TAPDI



"Kolxeti"nin yarımmüdafiəçisi Andria Bartişvili karyerasını İtaliyada davam etdirə bilər.

Bu barədə insayder Nikolo Şira məlumat yayıb.

Mənbənin sözlərinə görə, 15 yaşlı gürcü ilə "Yuventus" maraqlanır. Turin klubu Bartişvilini yeni Xviça Kvaratsxelia kimi görür. Onun potnesialı PSJ-də çıxış edən Gürcüstan futbolunun və millisinin lideri ilə müqayisə olunur.

Bartişvili 2025-ci ilin yanvarından "Kolxeti"nin ikinci komandasında çıxış edir. O, həmçinin Gürcüstanın U-17 yığmasının heyətində 4 oyunda 2 qol vurub.

QOROSKOP

## APRELİN ƏN ŞANSLI ÜÇ BÜRCÜ

***Aprel bəzi bürclər üçün inanılmaz dərəcədə şanslı olacaq. Onlar hər hansı yeni işdə maliyyə uğuru, şəxsi xoşbəxtlik və uğurlar gözləyə bilərlər.***

**Oğlaqlar** gəlirli daşınmaz əmlak əməliyyatlarından əldə edilən əhəmiyyətli vəsait axını yaşayacaqlar. Vərəsəlik almaq ehtimalı da yüksəkdir. Yaşayış yerinizi dəyişdirmək barədə qərar qəbul etmək üçün indi yaxşı vaxtdır - cəsarətlə yeni üfüqləri qarşılamaq üçün yola çıxın.

Vacib maliyyə məsələlərini müzakirə edəcəkləri **Balıqların** yanında tərəfdaş və ya dost görünəcək. Aprel ayında qoyulan investisiyalar son dərəcə sərfəli olacaq. Kənardan gələn məsləhətlər fayda və daha sonra uğur gətirəcək.

**Şirlər** üçün aprel şəxsi həyatlarında xoşbəxtlik gətirəcək. Tərəfdaşınızın diqqətindən yayınmayın, cəsarətli təkliflərlə razılaşın. Bu ay ailənizə vaxt ayırın.




MARAQLIDIR

## DÜNYADA İLK DƏFƏ

***Beyindəki siqnalları səsə çevirən süni intellekt modeli ilə işləyən cihaz sınaqdan keçirilib.***

ABŞ-də tədqiqatçılar beyindəki siqnalları səsə çevirən süni intellekt modeli ilə işləyən cihazı 18 il əvvəl iflic keçirdikdən sonra danışma qabiliyyətini itirən 47 yaşlı qadının beyninə yerləşdirib.



Araşdırma hələ sınaq mərhələsində olsa da, mütəxəssislər gələcəkdə cihazın danışa bilməyən insanlara kömək edə biləcəyini düşünürlər. Tədqiqatın detalları "Nature Neuroscience" jurnalında dərc edilib.

Alimlər cihazın birbaşa beynin nitq mərkəzinə yerləşdirildiyini və bu bölgədən gələn siqnalları davamlı olaraq analiz etdiyini bildiriblər. Tədqiqatçılar xəstə müəyyən cümlələri xəyal etdikdə, onun beynindəki siqnalları elektrodlar vasitəsilə qeydə alaraq, iflic keçirməzdən əvvəlki səs yazılarından istifadə edərək düşüncələri real vaxt rejimində səsləndiriblər.

## TBİLİSİDƏ İKİ YENİ METRO STANSİYASININ İNŞASI PLANLAŞDIRILIR

***"Tbilisi Nəqliyyat Şirkəti" iki yeni metro stansiyasının layihələndirilməsi və tikintisinə dair "Design-Build" (Layihə-Tikinti) üsulu ilə bazar araşdırması aparır.***

Söhbət həm layihələndirmə, həm də tikinti işlərinin eyni zamanda bir podratçı tərəfindən həyata keçirilməsindən gedir.

Mövcud sənədlərdən məlum olur ki, ümumilikdə 4 stansiyanın layihələndirilməsi nəzərdə tutulur. Onlardan 2-si yeni metro stansiyası olacaq, digər 2-si isə mövcud olan Varketili və Qldani istiqamətlərindəki stansiyaların yenidən layihələndirilməsidir.

Texniki tapşırığa əsasən, yeni metro stansiyalarından biri Qldani, digəri isə Varketili istiqamətində əlavə olunacaq. Qeyd edilməlidir ki, metro xəttinin uzadılmasının təxmini ümumi uzunluğu 5,2 kilometr olacaq – bunun 2,2 kilometri Qldani, 3 kilometri isə Varketili istiqamətində yerləşəcək.

Layihənin həyata keçirilməsi üçün nəzərdə tutulan müddət 5 ildir və işlərin bir neçə mərhələdə aparılması planlaşdırılır.

Maliyyə məsələsinə gəldikdə isə, layihə üçün 2025-ci il büdcəsində vəsait ayrılmayıb. Lakin 2026 və 2027-ci illərdə hər il üçün 15 milyon ABŞ dolları olmaqla, ümumilikdə 30 milyon dolların xərclənməsi nəzərdə tutulur.

Hazırda Tbilisi metrosunda 23 fəaliyyət göstərən stansiya mövcuddur – bunlardan 16-sı Qldani–Varketili, 7-si isə Saburtalo xəttində yerləşir. Metro xətlərinin ümumi uzunluğu 26,4 kilometrdir.

## ZƏRİFLİYİN DİLƏ GƏLDİYİ AN



Foto E.Şahvələdindir.

YENİLİK

## TÜTÜN BRENDLƏRİ ARTIQ STANDART QABLAŞDIRMAYA KEÇİR

***Aprelin birindən etibarən tütün məmulatlarının satışı yalnız sadə, standartlaşdırılmış qablaşdırma ilə mümkündür.***

Qanuna əsasən, bütün brendlər vahid, standart rəngli qablaşdırmadan istifadə etməlidirlər. Bu qablaşdırmada yalnız brendin və alt-brendin adı, tibbi xəbərdarlıqlar və digər zəruri məlumatlar qeyd olunur.

*"Tütün məmulatlarının sadə qablaşdırılması onların cəlbediciliyinin azaldılmasına, xüsusilə yeniyetmələr və gənclər arasında marağın qarşısının alınmasına yönəlib. Tütünə nəzarət qanununun icrasına dair dövlət monitorinq proqramı çərçivəsində artıq fevral ayında bəzi tütün istehsalçılarının satış şəbəkələrinə sadə qablaşdırmada siqaret məhsulları təqdim etməsi halları qeydə alınıb. Aprelin 1-dən etibarən isə bütün pozuntularla bağlı müvafiq tədbirlər görülür. Bu hallarda cərimə məbləği 5000 lari təşkil edir",* – deyə Tütünə Nəzarət Alyansının yaydığı məlumatda bildirilir.

ABUNƏ YAZILMAĞI UNUTMAYAQ !

## "GÜRCÜSTAN" QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏRİN VƏ ABUNƏÇİLƏRİN NƏZƏRİNƏ!

***Hörmətli oxucular!***

"Gürcüstan" qəzeti Sizin sayənizdə bir əsrdir ki, davamlı nəşr olunaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, oxuculara sədaqətlə xidmət edir. Mənəvi çırağımız olan qəzetimiz həmişə Sizə arxalanmış, Sizdən ilham almışdır.

"Gürcüstan" qəzeti öz səsi, sözü ilə sələflərin mübariz ruhunu, həmişəyaşar ənənələrini qoruyub saxlayır və beləliklə, aybaay, ilbəil, nəsilbənəsil Gürcüstan azərbaycanlılarının həyat salnaməsiniyaradır, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr bəxş edir, milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi, dilimizin saflığının keşiyində qürurla dayanır. Qəzetimiz 2020-ci ilin mart ayına qədər 2000 nüsxə ilə nəşr olunurdusa, hal-hazırda qəzetin yayım coğrafiyası genişlənmiş, abunə sayı 55 faiz artaraq, 3100 nüsxəyə çatmışdır. Bir əsrdən çox ömrü olan "Gürcüstan" qəzetini yaşatmaq hər birimizin mütləq mənəvi borcudur. 2025-ci ildə "Gürcüstan" qəzetinə abunə olmaq istəyən şəxslər-fərdi abunəçilər (adını, soyadını və ünvanını göstərməklə), məktəblər, idarə, müəssisə və təşkilatlar yerlərdə qəzetin müxbirləri ilə və ya E-mail:Gurcustan_1921@mail.ru elektron poçtu vasitəsi ilə müqavilə bağlamaqla abunə haqqını qəzetimizin səkkizinci səhifəsində göstərilən bank hesabına köçürə bilərlər.

"Gürcüstan" qəzetinə illik abunə haqqı 20 (iyirmi) laridir. İl ərzindəabunəçiyə həftədə bir dəfə olmaqla 50 (əlli) qəzet təqdim ediləcək.

***Milli mənəvi dəyərlərimizi yaşadan, dilimizin keşiyində duran, varlığımızın göstərcisi olan "Gürcüstan" qəzetini yaşatmaq və ondan bəhrələnmək üçün abunə olmağı unutmayın.***

Qəzetimizə il boyu abunə ola bilərsiz. Abunə müddəti ödəniş tarixindən başlanır. "Gürcüstan" qəzetinin qayğıkeş, əməksevər kollektivi Sizin xidmətinizdə dayanaraq, etimadınızı doğruldacaqdır.

Əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Qeyd:** Qəzetin abunəçiyə vaxtında çatdırılması təmin olunacaq.

Müdiriyyət.

გაზეთის ანგარიშის ნომერი
შპს „გურჯისტანი" ს/კ 203863792
ანგარიშის **№ GE03LB0111185703773000**
სს ლიბერთი ბანკი **SWİFT: LBRTGE22**

Baş redaktor:
Xaləddin YOLÇUYEV

Redaktor müavini:
Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.